# Azərbaycan növbəti möhtəşəm Beynəlxalq tədbirə hazırlaşır

(Əvvəli 1-ci səhifədə).

Oyunlarda idmançılarımız tarixi qələbə qazandı. Komanda hesabında ikinci yerə layiq görüldü. İdmançılarımız 21-i qızıl olmaqla 56 medal qazandı. Birinci Avropa Oyunları Azərbaycan dövlətinin, xalqının hərtərəfli bayramı, təntənəsi idi.

İslam Həmrəylik Oyunlarının keçirilməsi də çox önəmli beynəlxalq yarışma olacaqdır. Azərbaycan İslam aləminin bir parçasıdır. Azərbaycan dövləti bu oyunların da yüksək səviyyədə keçirilməsini təmin edəcəkdir.

Bu Oyunlardan başqa Azərbaycan müxtəlif beynəlxalq yarışlara da ev sahibliyi edəcəkdir. 2016-cı ildə "Formula-1" yarışması ilk dəfə olaraq Azərbaycanda keçiriləcəkdir. Bu da futbol üzrə dünya çempionatı ilə bir səviyyədə olan yarışmadır. Bütün dünyanın gözü yenə də Azərbaycanda olacaq. Gələn il Azərbaycanda Dünya Şahmat Olimpiadası keçiriləcək.

Bədxahlara, antiAzərbaycan, islamofob qüvvələrə ən yaxşı cavabımız bizim reallıqlarımızdır. Azərbaycana gələn xarici qonaqların mütləq əksəriyyəti ölkəmizdən ən xoş arzularla ayrılır. Çünki onlar qərəzsizdir, Azərbaycana xoş niyyətlə gəlirlər.

Azərbaycanda dini, milli zəmində heç bir ayrı-seçkilik yoxdur, heç vaxt olmayıb və olmayacaqdır. Vətənimiz bir çox ölkələr üçün nümunədir. Bu gün bütün dünyanın gözü qarşısında müsəlman qaçqınlara işgəncələr verilir.

Sonda ölkə Prezidenti qeyd etmişdir ki, «İslam Oyunları ilk növbədə İslam həmrəyliyini gücləndirəcək, həm İslam aləminə, həm dünyaya bir daha göstərəcək ki, İslam dini sülh, mərhəmət və qardaşlıq dinidir. Eyni zamanda, dünyaya göstərəcək ki, Azərbaycan böyük imkanlara malik olan ölkədir və ən mötəbər beynəlxalq yarışları keçirməyə qadirdir.

Biz çalışacağıq ki, bütün təşkilati məsələlər öz həllini tapsın. Birinci Avropa Oyunlarında əldə edilmiş təcrübə əlbəttə ki, bizə kömək göstərəcək. Nəzərə alsaq ki, Təşkilat Komitəsi təxminən bu tərkibdə Avropa Oyunlarının keçirilməsi ilə də məşğul idi, mən əminəm, qarşıda duran bütün vəzifələr icra ediləcəkdir və bir daha Azərbaycan öz imkanlarını ortaya qoyacaqdır».

Təşkilat Komitəsinin yığıncağında komitənin sədri Mehriban xanım Əliyeva, respublika Gənclər və İdman naziri Azad Rəhimov çıxış etmişlər.

**Qüdrət SƏMƏDOV.**

# Cənab İlham Əliyevin prezidentlik fəaliyyətinin on ikinci ildönümü ərəfəsindəyik

2003-cü ilin 15 oktyabrında cənab İlham Əliyevin ölkə seçicilərinin 77 faizinin səsini qazanaraq Azərbaycan Prezidenti seçilməsi məntiqi qanunauyğunluq və tarixi reallığa əsaslanan düzgün seçim idi.

Azərbaycan xalqının cənab İlham Əliyevə yüksək etimad göstərməsinin səbəbi şübhəsiz ki, bu şəxsiyyətin ictimaiyyətdə peşəkar diplomat, idarəçilikdə qabiliyyətli təşkilatçı, görkəmli siyasi xadim kimi qazandığı nüfuz olmuşdur. 2003-cü ilədək cənab İlham Əliyev Azərbaycan Dövlət Neft şirkətinin birinci vitse prezidenti kimi yeni neft strategiyasının uğurla icrasında,Milli Məclisin deputatı kimi fəaliyyətində vətəndaşların inamını doğrultmuş, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini statusunda ölkədə siyasi proseslərin daha sivil məcraya düşməsində AŞPA sədrinin müavini və qurumun büro üzvü kimi ölkəmizin beynəlxalq nüfuzunun yüksəldilməsində, Milli Olimpiya Komitəsinin prezidenti tək idmanın inkişafında böyük nailiyyətlər qazanmış, Baş nazir vəzifəsində özünü qətiyyətli rəhbər kimi təsdiq etmişdir.

Cənab İlham Əliyevin xarici dövlətlərin rəhbərləri və beynəlxalq təşkilatların rəsmləri tərəfindən yeni dövrün yeni lideri kimi qəbul edilməsi xalqda onun uğurlu fəaliyyətinə əminlik yaratdı. Ulu öndərimiz Heydər Əliyevin «Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm» sözləri də cənab İlham Əliyevin inamlı qələbəsini təmin edən əsas faktlardan idi.

On iki il əvvəl «Mən hər bir azərbaycanlının Prezidenti olacağam»-bəyanatı ilə səlahiyyətlərinin icrasına başlayan ölkə rəhbəri ötən müddətdə bu vədini tam doğrultdu. Prezidentin məqsədyönlü fəaliyyəti nəticəsində ilk növbədə, Azərbaycanın qüdrətli dövlətə çevrilməsi yolunda son dərəcə mühüm olan siyasi sabitlik qorunub saxlanılmış, vətəndaş həmrəyliyinə,iqtisadi inkişafın sürətləndirilməsinə, sosial tərəqqiyə xidmət edən mükəmməl konsepsiyaların həyata keçirilməsində yeni mərhələnin əsası qoyulmuşdur.

Son on iki il ərzində Prezident lham Əliyev tərəfindən ölkənin sosial-iqtisadi inkişaf strategiyasının uğurlu icrası məqsədilə mühüm addımlar atılmış, cəmiyyətin demək olar ki, bütün sahələrini əhatə edən çoxsaylı dövlət proqramları qəbul olunmuşdur. Son on iki ildə 3 dəfə «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramları»nın təsdiq edilməsi haqqında fərmanlar imzalanmışdır.

Dövlət Proqramlarında qarşıdakı illər üçün regionlarda iqtisadi inkişafı sürətləndirən amillər, bununla bağlı dövlət siyasətinin əsas istiqamətləri müəyyənləşdirilmişdir. Proqramların əsas məqsədi regionların iqtisadi potensialından səmərəli istifadəyə, əhalinin məşğulluq səviyyəsinin yüksəldəilməsinə və ölkə iqtisadiyyatının dinamik inkişafının təmin edilməsinə nail olmaqdan ibarətdir. Dövlət proqramlarının uğurlu icrası öz bəhrəsini verməkdədir. Bir məqamı da qeyd edək ki, indiyədək böyük uğurla aparılan torpaq islahatları sayəsində Azərbaycan vətəndaşları torpaq mülkiyyətçisinə çevrilmiş, aqrar sektorda bir sıra yeni, çoxnövlü özəl mülkiyyət formaları meydana çıxmışdır. Bu sahədə özəl sektorun inkişafına əlverişli zəmin yaradılmış, iqtisadiyyatın digər sahələrində olduğu kimi, kənd təsərrüfatı sektorunda da sahibkarlıq subyektlərinin təşkilinin əsası qoyulmuşdur. Aqrar sektorun inkişafı hesabına regionlarda yeni iş yerlərinin açılması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, kəndlinin torpağa bağlanması təmin olunmuşdur.

On iki il müddətində əhalinin sosial problemlərinin aradan qaldırılması Prezident İlham Əliyevin diqqət mərkəzində olmuşdur. Dövlət başçısının müvafiq fərman və sərəncamları ilə minimum əməkhaqqı, işsizlik müavinəti və peşə hazırlığı müddətində işaxtaran və işsiz vətəndaşlara ödənilən təqaüdün minimum məbləği, pensiya və müavinətlərin məbləği dəfələrlə artırılmışdır. Neft gəlirləri hesabına qaçqın və məcburi köçkünlər üçün yeni qəsəbələrin salınması, onların həyat səviyyəsinin yaxşılaşdırılması da dövlət başçısının diqqət mərkəzində olmuşdur. «Azərbaycanda bir dənə də olsun, çadır şəhərciyi qalmayacaq» deyən Prezident İlham Əliyev bu vədini əməli işi ilə təsdiqləyir.

Ölkədə aparılan quruculuq, inkişaf prosesinin bir hissəsinin fəal icraçısına çevrilən Heydər Əliyev Fondu da öz fəaliyyətində mühüm nailiyyətlərə imza atmışdır. Milli Məclisin deputatı, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi fond tərəfindən son on iki il ərzində «Yeniləşən Azərbaycana yeni məktəb» layihəsi çərçivəsində tikilən məktəblərin və təmir olunan məktəblərin sayı yüzlərlədir. Müasir dünya standartlarına uyğun şəhər xəstəxanaları, regional diaqnostika mərkəzləri, sağlamlıq ocaqları inşa edilərək əhalinin istifadəsinə verilmişdir.

Dövlət başçısı əhalinin həyat səviyyəsinin yüksəldilməsini nəzərdə tutan bütün məsələləri daim diqqət mərkəzində saxlamaqla yanaşı, bir vacib məqama da üstünlük verir. Vətəndaşları narahat edən problemlərin həlli yönümündə ən uğurlu addım onlarla canlı ünsiyyət yaratmaq, xalq arasına çıxmaqdır. Prezidentin birbaşa vətəndaşlarla təmaslara üstünlük verməsi, onlarla səmimi ünsiyyətdə olması, narahatlıq doğuran problemlərin yerindəcə həlli üçün operativ göstərişlər verməsi ictimaiyyət tərəfindən olduqca yüksək dəyərləndirilir. Bu, bir tərəfdən ölkə başçısına mövcud vəziyyətlə bağlı ən obyektiv məlumatları əldə etmək imkanı verir, digər tərəfdən dövlət məmurlarını əhalinin problemlərinə daha ciddi yanaşmağa sövq edir.

Dövlət başçısı qazanılmış nailiyyətlərlə yanaşı, bir sıra problemlərin mövcudluğunu da etiraf edir və hökuməti problemləri hər cəhətdən öyrənməyə, təhlil etməyə, aradan qaldırmağa, şəffaf fəaliyyətə çağırır. «Biz problemləri gizlətməməliyik. Necə deyərlər, elə bir təsəvvür yaratmamalıyıq ki, hər şey yaxşıdır. Hər şey yaxşı istiqamətdə, çox sürətlə inkişaf edir, Bəlkə gözlədiyimizdən də sürətlə inkişaf edir. Ancaq problemlər də həll olunmalıdır. Bizim vəzifəmiz bundan ibarətdir. Xalq bizdən bunu istəyir. Biz də bunu təmin etməliyik və edirik»

Böyük nailiyyətləri gündəlik həyatında hiss edən, möhkəm təməllərə söykənən ictimai-siyasi sabitlik, əmin-amanlıq şəraitində yaşayan hər bir azərbaycanlı bu gün 15 oktyabr 2003-cü il seçiminin son dərəcə düzgün olduğunu bir daha təsdiqləmişdir.

**Aslan CƏLİLOV.**